*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1* *ISSN 2663-4368*
*Səhifə: 30-33* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.1.30*

# Salman Mümtazın şəxsi arxivi

**Nailə Səmədova**
filologiya elmləri doktoru
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
E-mail: nailesamadova@yahoo.com

**Annotasiya.** AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda görkəmli ədəbiyyatşünas, folklorşünas alim Salman Mümtazın zəngin şəxsi arxivi saxlanılır. 24 saylı arxiv 689 saxlama vahidindən ibarətdir. Arxiv Əlyazmalar İnstitutuna 1947-ci ildə təhvil verilmişdir. Sənədlərin ilk və son tarixləri 1856-1941-ci illəri əhatə edir.
Arxivə Salman Mümtazın əsərlərinin əlyazmaları, tədqiqat üçün topladığı materiallar, məktubları və ona ünvanlanan məktublar, Salman Mümtaza həsr olunmuş şeirlər, üzünün və başqalarının fotoları, başqa müəlliflərin əsərləri və çap kitabları daxildir. Salman Mümtaz arxivi təsvir olunaraq 2005-ci nəşr edilmişdir. Lakin kitabda bəzi sənədlər təsvirdən kənarda qalmış, bəzi sənədlər isə lazımi səviyyədə təsvir edilməmişdir.
Məqalədə arxivdə saxlanılan sənədlər barədə ümumi məlumat verilmişdir və “Salman Mümtaz arxivinin təsviri” kitabındakı bəzi çatışmazlıqlar nəzərə çatdırılmışdır.
**Açar sözlər:** Salman Mümtaz, sənəd, təsvir, foto, məktub

**Məqalə tarixçəsi**: göndərilib – 18.02.2025; qəbul edilib – 04.03.2025

# Personal archive of Salman Mumtaz

**Naila Samadova**
Doktor of Philological Sciences
Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS
E-mail: nailesamadova@yahoo.com

**Abstract.** The rich personal archive of prominent literary scholar, folklorist scientist Salman Mumtaz is housed at the Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. Archive No. 24 consists of 689 storage units. The archive was handed over to the Institute of Manuscripts in 1947. The first and last dates of the documents cover the years 1856-1941.
The archive includes manuscripts of Salman Mumtaz's works, materials collected for research, his letters and letters addressed to him, poems dedicated to Salman Mumtaz, photographs of his and others, works of other authors and published works. The archive of Salman Mumtaz was published in 2005. However, some documents were left out of the description in the book, and some documents were not described at an adequate level.
The article provides information about the documents kept in the archive and some shortcomings in the book "Description of Salman Mumtaz's archive" are pointed out.
**Keywords:** Salman Mumtaz, document, description, photo, letter

**Article history:** received – 18.02.2025; accepted − 04.03.2025

## Giriş / *Introduction*

Zəngin xəzinəyə malik olan Əlyazmalar İnstitutunda XIX-XX əsrlərdə yaşayıb-yaratmış ədəbiyyat və mədəniyyət xadimlərimizin şəxsi arxivləri qorunur. Bunlardan biri də görkəmli ədəbiyyatşünas, folklorşünas alim Salman Mümtazın arxividir. Azərbaycan klassiklərinin əsərlərini toplayıb nəşrə hazırlanmasında, bir çox müəlliflərin elmi-tənqidi mətnlərinin tərtibində alimin müstəsna xidmətləri olmuşdur. Onun irsinin mühüm və əsas hissəsi Əlyazmalar İnstitutundakı arxivində qorunmaqdadır. Burada Salman Mümtazın əsərlərinin əlyazmaları, tədqiqat üçün topladığı materiallar, məktubları və ona ünvanlanan məktublar, Salman Mümtaza həsr olunmuş şeirlər, özünün və başqalarının fotoları, başqa müəlliflərin əsərləri və çap kitabları saxlanılır.

## Əsas hissə / *Main Part*

Salman Mümtazın Əlyazmalar İnstitutunda saxlanılan arxivindəki sənədlər [1] həcmcə müxtəlif, məzmunca zəngindir. Onun məqalə, qeyd və şeirlərinin əlyazmalarına [2] İsmayıl bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" əsəri haqqında "Avropa təsirində yazılmış ilk hekayəmiz" adlı məqalə, Ağa Saleh Şirvani haqqında məlumat, Azərbaycan ədəbiyyatında Xətai dövrü, Azərbaycan şairlərindən Bəsiri, Baba bəy Şakir, Molla Pənah Vaqifin həyatı və Qacarın Qarabağa hücumu ilə əlaqədar bir məqalənin planı, Əbülqasim Firdovsi, Məhəmməd Füzuli, Mehdiqulu xan Vəfa, Həsən bəy Zərdabi, Əliqulu Qəmküsar haqqında məqalələr, sufilik haqqında qeydlər, şeirləri və tərcümeyi-halı hazırlanmış şairlərin siyahısı və müxtəlif məzmunlu digər sənədlər daxildir.

Arxivdə Salman Mümtazın tədqiqat üçün topladığı materiallar üstünlük təşkil edir [3]. Burada müxtəlif dövrlərdə yaşayıb-yaratmış şairlər, görkəmli şəxsiyyətlər haqqında məqalələr, qeydlər, əsərlərindən nümunələr toplanmışdır. Bura Abdulla Hatifi, Ağdaşlı Məhəmməd, Aşıq Günbəzi, Aşıq Saleh, Bahar Şirvani, Bəsiri Bağdadi, Molla Pənah Vaqif, Qazi Bürhanəddin, Qaib Hacı Dadaş, İbn Hacı Səməd, Əhdi Bağdadi, Qasım bəy Zakir, Əlişir Nəvai, Nitqi, Xəlili, Ağa Məsih Şirvani, Mirzə Yusif Qarabaği, Mirzə Şəfi, Xəyali, Saib Təbrizi, Süruri, Cami haqqında, eləcə də Qarabağ xanlığına, ədəbiyyata, ədəbiyyat nəzəriyyəsinə, müxtəlif tarixi və ədəbi şəxsiyyətlərə, tarixi hadisələrə aid qeydlər; Xaqani, Əmir Xosrov Dəhləvi, Həbibi, Kişvəri, Xətai, Qurbani, Məxtimqulu, Mir Mehdi Xəzani, Abbas Bayat, İbrahim bəy Azər, Asəfi Şirvani, Saleh Şirvani, Fateh Şirvani, Sədi Sani Qarabaği, Abdulla bəy Qarabaği, Aşıq Abdulla, Aşıq Qərib, Sarı Aşıq, Molla Ağa Bixud, Bülbül, Xəstə Qasım, Əliqulu Qəmküsar, Dərviş Xəlil, Ağa İsmayıl Zəbih, Molla ağa Zühuri, Şəkili Nəbi, Mehdi bəy Qazaxlı, Məhəmməd bəy Aşiq, Məczub, Molla Cümə, Salik, Molla Əhməd Dərbəndi, Məhəmməd Hadi, Mirzə Ələkbər Sabir və başqalarının əsərlərindən nümunələr; eləcə də Məhəmməd Füzulinin "Divan"ı, Abbas Mirzə Naib, Mirzə Nəsrullah Şirvani, Şəkili Əhməd Əfəndi, İsmayıl bəy Qutqaşınlı, Sultan İbrahim Cahi, Xosrov bəy haqqında məqalələr; Ağabəyim ağa, İbrahim bəy Azər, Badam xanım, Bixud, Seyid Əzim, Mirzə Yusif, Molla Pənah Vaqif, Qəmər bəyim Şeyda, Molla Kərim, Zülali Şirvani, Mirzə Əbdülxaliq, Mirzə Səhəng, Ağa Şəfi ibn Zeynal, Mustafa ağa Şəkili, Mirzə Ələkbər Sabir, Seyid Yəhya, Pir Hüseyn Şirvani, Məhəmməd Tağı Sidqi, Sadiqi, Cəlil Naxçivani, Qarabağ xanlığı, Kiş şəhəri haqqında məlumatlar; Azərbaycan və Dərbənd şairlərinin, Aşıq Pəri ilə əlaqədar şeirlərin, Dövlət kitabxanasında olan əlyazmaların, farsca yazan 154 şairin, fərmanların, şairlərimizin təxəllüslərinin siyahıları aiddir. Bu materialları incələyərkən bir daha əmin oluruq ki, Salman Mümtazın "istər klassik yazılı ədəbiyyat, istərsə şifahi xalq ədəbiyyatı nümunələrini toplayıb tədqiq və təbliğ etməsi mətnşünaslıq elminin inkişafı yolunda ilk əhəmiyyətli addımlardan" [12, s.184] olmuşdur.

Arxivdə Salman Mümtazın 1931-ci və 1934-cü illərdə Yenikolopova ünvanladığı dörd məktubu [4] və Hacı Yaqub Əfəndizadənin 1920-ci, Yuri Marrın 1923-cü, 1925-ci, Əhməd Əfəndizadənin 1928-ci illərdə yazdıqları dörd məktu-

bun əlyazmaları [5] saxlanılır. Məktublar Azərbaycan, rus və fars dillərindədir. Arxivdə həmçinin Salman Mümtazın oğlu İsgəndərə və qızı Şəhlaya 1940-cı və 1941-ci illərdə rus dilində yazdığı məktubları da qorunur [11].

Salman Mümtaza həsr olunmuş şeirlər [6] Əbdülxalıq Cənnətiyə (5 vərəq) və Naşirə (1 vərəq) məxsusdur. Bu görkəmli şəxsiyyətin zəngin arxivində özünə aid iki foto saxlanılır [7]. 1913-cü ilə aid tək fotonun arxa üzündə Abbasqulu Yusifzadəyə bağışlanması haqqında avtoqraf qeydi vardır. Digər fotoda isə Salman Mümtaz qrup içərisindədir. Şəklin çəkiliş tarixi qeyd edilməmişdir. Arxivdə görkəmli şəxsiyyətlərin fotoları üstünlük təşkil edir [10]. Əbdülxaliq Yusif, Məhəmməd Tağı Sidqi, Əli Paşa Səbur, Hacı Mehdi Şükuhi, Səid Səlmasi, Abdulla Sur, Fatma xanım Kəminə, Məmo bəy Məmai, Fətəli şah, Şah Təhmasib, İbrahim bəy Azər, Mirzə Rəhim Fəna, Həsənəli xan Qaradaği, Mirzə Əbdülxalıq Cənnəti, Mustafa ağa Şuxi, Mir Möhsün Nəvvab və başqalarının arxivdə saxlanılan fotolarının ümumi sayı 89-dur.

Başqa müəlliflərin əsərlərindən Əmin Abidin "Mirzə Fətəli Axundovun arxivi" əsəri, Mirzə Fətəli Axundovun məktubları, Molla Pənah Vaqifin əsərləri, Məmməd Arif Dadaşzadənin Məmməd Səid Ordubadi, Əbülqasım Firdovsi, Şota Rustaveli, Vladimir Mayakovski, Mixail Şoloxov, Aleksandr Şirvanzadə haqqında məqalələri, Lənkəran şairlərinin əsərləri, Mehdi Hüseynin "Bərpa dövrü ədəbiyyatı" oçerki, Mir Cəlalın "Səməd Vurğun" məqaləsi, Nəriman Nərimanovun "Bahadır və Sona", "Nadir şah" əsərləri, fars dilində, 102 vərəqdən ibarət "Tarixi-inqilabi-İran", Şah İsmayıl Xətainin 350 vərəqdən ibarət qəzəlləri, Məhəmməd Hadinin şeirləri, Azərbaycan və fars dillərində cünglər və s. saxlanılır [8].

Salman Mümtaz arxivində müxtəlif illərdə nəşr olunmuş xeyli sayda çap kitabları da qorunur [9]. Bunlar Ağa Məsih Şirvani (1925), Ağa Bağır Şirvani (1928), Mirzə Nəsrullah Didə (1928), Məhəmməd Hüseyn xan Müştaq (1925), Nəriman Nərimanov (1899, 1913, 1917, 1920), İmadəddin Nəsimi (1926), Nitqi Şirvani (1925), Əli Səbur (1915), Baba bəy Şakir (1927) və başqalarının Azərbaycan dilində nəşr edilmiş kitablarıdır.

Salman Mümtaz arxivi təsvir olunaraq 2005-ci ildə nəşr edilmişdir [13]. Kitabda sənədlər üç bölmədə qruplaşdırılmışdır: Salman Mümtazın əlyazmaları, məktublar və çap kitabları. Arxivdəki sənədlər əlifba sırası ardıcıllığı ilə qeyd edilmişdir. Lakin bəzi sənədlərin məzmunu verilməmişdir. Bəzi sənədlərin isə məzmunu lazımi səviyyədə açıqlanmamışdır. Bir çox sənədlər isə təsvirdən kənarda qalmışdır. Məsələn, saxlama vahidi 654-də qorunan Məhəmməd Hüseyn xan Müştaqın "Əsərləri", saxlama vahidi 674-də qorunan Məhəmməd Füzulinin "Divan"ı təsvir kitabında yer almamışdır. Bununla belə, bu kitab vasitəsilə Salman Mümtaz arxivi haqqında ümumi məlumat almaq, eləcə də fond barədə təsəvvür əldə etmək mümkündür. Lakin arxivdəki sənədlərin yenidən və hərtərəfli təsvir edilərək kitab halında nəşr edilməsi daha geniş məlumatlar əldə edilməsinə zəmin yarada bilər.

## Nəticə / *Conclusion*

Salman Mümtazın, bu fədakar və cəfakeş insanın zəngin irsi təkcə Əlyazmalar İnstitutunda deyil, adını daşıyan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində də mühafizə edilir. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin, folklorumuzun toplanıb tədqiq edilməsində Salman Mümtazın göstərdiyi xidmətlər əvəzsizdir. Onun arxivlərdə əlyazması şəklində olan əsərlərinin əksəriyyəti hələ də öz araşdırıcısını gözləməkdədir. Bunları müəyyənləşdirib, üzə çıxarıb tədqiq etməklə ədəbiyyatımıza yeni-yeni töhfələr bəxş etmək olar.

## Ədəbiyyat / *References*

1. AMEA ƏYİ, fond 24, 689 saxlama vahidi.
2. AMEA ƏYİ, f.24, s.v.1-51.
3. AMEA ƏYİ, f.24, s.v.52-525.
4. AMEA ƏYİ, f.24, s.v.526-529.

5. AMEA ƏYİ, f.24, s.v.530-534.
6. AMEA ƏYİ, f.24, s.v.535-536.
7. AMEA ƏYİ, f.24, s.v.537-538.
8. AMEA ƏYİ, f.24, s.v.539-628.
9. AMEA ƏYİ, f.24, s.v.629-679.
10. AMEA ƏYİ, f.24, s.v.680-688.
11. AMEA ƏYİ, f.24, s.v.689.
12. Nəcəfov N. Salman Mümtaz. Bax: Azərbaycan mətnşünaslığı məsələləri. Bakı: Elm, 1979.
13. Pasayeva M., Hacıyeva Z. Salman Mümtaz arxivinin təsviri. Bakı: Nurlan, 2005.

## Личный архив Салмана Мумтаза

**Наиля Самедова**
Доктор филологических наук
Институт Рукописей имени Мухаммеда Физули НАНА
E-mail: nailesamadova@yahoo.com

**Резюме.** Богатый личный архив выдающегося литературоведа, ученого-фольклориста Салмана Мумтаза хранится в Институте Рукописей имени Мухаммада Физули НАНА. Архив №24 состоит из 689 единиц хранения. В 1947 году архив был передан в Институт Рукописей. Первая и последняя даты документов охватывают 1856-1941 годы.

В архиве представлены рукописи произведений Салмана Мумтаза, материалы собранные для исследования, письма его и адресованные ему, стихи, посвященные Салману Мумтазу, фотографии его и других, произведения других авторов и изданные произведения. Архив Салмана Мумтаза был опубликован в 2005 году. Однако в книге некоторые документы остались вне описания, а некоторые документы не были описаны на должном уровне.

В статье представлена информация о документах, хранящихся в архиве, и указываются некоторые недостатки в книге “Описание архива Салмана Мумтаза”.

**Ключевые слова:** Салман Мумтаз, документ, описание, фотография, письмо.